

*Nəcməddin MÜRVƏTOV*

### GÖZLƏ

Gözlə, gələcəyəm bir gün yanına,
Hüdudsuz olmazın şövqlə, həvəslə.
Şirinlik qatacam hər bir anına,
Məhrəm baxışlarla, ılıq nəfəslə.

Hörəcəm adına sözlərdən çələng,
Elə ki, ətrindən doyasan, gülüm.
Səsimdən sehrli əfsunlar, ahəng,
Ruhundan ayıra min söz, öyülüm.

Uyacam, dalacam gözəlliyinə,
Acıq verəcəyəm hicran, həsrətə.
Diqqətim fikrinin özəlliyinə
Olacaq, həm səbəb məndən rəğbətə.

Tamam unudacam ətraf aləmi,
Bir sən olacaqsan, bir də, bir də mən.
Çoxdan gözlədiyim bu vüsal dəmi,
Yaradar gözlərim dola sevincdən.

Gözlə, gələcəyəm, birgə gözləyək,
Sən orda, mən burda o həmən günü.
Yəqin qovuşdurar bizi bu istək,
Bitə qəlbimizin harayı, ünü.
*26.03.2024*

### TANI MİLLƏT

Zaman-zaman saflığından böhtan, şərə
Hey düşmüsən dönə-dönə milyon kərə,
Çox çəkiblər sinənə dağ bir cür hərə.
Söylə, tayın-bərabərin hanı, millət?
Tanı dostun, düşmənini, tanı millət.

Parçalanıb bölünmüsən neçə yerə,
Qısılmısan xırda, kiçik sərhədlərə.
Əsir yurdlar harayına bir hay verə
Səslən, axı gözləyirlər anı millət,
Tanı dostun, düşmənini tanı millət.

Niyə açdın axı qucaq yağılara,
Dönə ola o köksündə qara yara.
Tut boğ onu, rəhm eyləmə, çək ki dara,
Qoy biryolluq çıxa murdar canı, millət.
Tanı dostun, düşmənini, tanı millət.

Bax, üstünə gəlir necə "dünya şər"i,
Gözləmir haqq-ədalətdən bir dəyəri,
Qoy ortaya sonsuz əzmi, həm hünəri.
Uğur qazan, qoru şərəf-şanı, millət,
Tanı dostun, düşmənini, tanı millət.

Türklüyünlə böyüksən sən, həm də ulu,
Tutduğun yol həqiqətdir, Tanrı yolu,
Get irəli, gözlə amma sağı, solu.
Dön özünə, səy et qur Turanı, millət,
Tanı dostun, düşmənini, tanı millət.

### "AĞIR KİŞİLƏR"

Gözləmirdi əvəz yaxşılığından,
Səslənsə, yetərdi dada həmin an.
Seçib ayırmaqla yaxşı, nə yaman,
Verməzdi kimsəni yola birtəhər,
O vaxtkı sözü bir "ağır kişilər".

Qanundu kəlməsi dilindən çıxan,
Deyildi nahaqdan incidən, sıxan.
Çaşardı acizə güc gələn, yıxan,
Yetərdi göstərə ona tərs nəzər,
O vaxtkı sözü bir "ağır kişilər".

Sormaqla harada kimin dərdi nə,
Arardı bir əlac onun dərdinə,
Dayaqda obanın, elin mərdinə.
Qoymazdı həddini aşa bir nəfər,
O vaxtkı sözü bir "ağır kişilər".

Tələb edərdilər hey dönə-dönə,
Gərək pozulmaya adət-ənənə.
Ləkə gətirənə yurd şərəfinə
Qulaqburmasını bərk verərdilər,
O vaxtkı sözü bir "ağır kişilər".

Müşküldə gəlməklə birgə qərara,
Baxmayıb belədə gəlir-çıxara,
Xələl gəlməməyə abıra, ara,
Onun həll yolunu düz gedərdilər,
O vaxtkı sözü bir "ağır kişilər".

Haqqı gözlərdilər, saf ədaləti,
Təlimdi onların sözü-söhbəti.
Səylə qazanmağa eldən rəğbəti,
Məqamda igiddi hərə, şiri-nər,
O vaxtkı sözü bir "ağır kişilər".

### QAZAN EL SEVGİSİ

Sarmasın ruhunu ac nəfs azarı,
Tutmasın gözünü dünyanın varı,
Yaxın, dost, həmdəmlə qur xoş rəftarı.
Üstün bil adına olan rəğbəti,
Qazan el sevgisi, el məhəbbəti.

Lap tikdir hər yanda möhtəşəm saray,
Qala neçə nəslə səndən xeyli pay.
Gətirməz şan-şöhrət yox, yox bu olay.
Et ki, xeyirxahlıq, çəkər diqqəti,
Qazan el sevgisi, el məhəbbəti.

Olsan ətrafına çətinində yar,
Şəksiz dəyərini hər dəm artırar.
Qalmaz yaxşılığın nəzərdən kənar,
İstər aşkar eylə, ya ki, xəlvəti,
Qazan el sevgisi, el məhəbbəti.

Nöqsan, səhvlərini etsən etiraf,
Saxlar varlığını beləliyin saf.
Faciən, əhdinə çıxmağın xilaf,
Bir də etdiyindən qoymaq minnəti,
Qazan el sevgisi, el məhəbbəti.

Qazan el sevgisi səylə hər işdə,
Bu istək arzunda adət, vərdişdə
Yaşasın, görünsün, ki tərpənişdə,
Qəlbinin paklıqdır məram, niyyəti,
Qazan el sevgisi, el məhəbbəti.
*19.02.2024*

### XEYİR ARA

Tanrının hökmünə bağlıdır bir iş,
Odur olacağa verən göstəriş.
Deyir:"Ruzi məndən, göstər tərpəniş",
Gəlmə çətinində bədbin qərara,
Axtar, zərərdə də bir xeyir ara.

Qazanmaq həmişə uğur, çox asan
Olmur ki, bəzən də buna qoyub can,
Et cəhd-səy, keçir də qorxu, həyəcan.
Gəlir bəmbəyaza əvəz qapqara,
Axtar, zərərdə də bir xeyir ara.

Bacar, səhvlərindən ustad dərsi al,
Yaratma ruhunda boşdan qalmaqal,
Düşün ki, deyilsən axı nadan, kal.
Salma ürəyini bundan azara,
Axtar, zərərdə də bir xeyir ara.

Olar üz ağlığın, əgər təməldə,
Gözləsən tək haqqı işdə, əməldə.
Razılaş qazanan belədə əldə
Qala azdan da az, "maya batıra",
Axtar, zərərdə də bir xeyir ara.

Bu fani dünyadan nə aparıb kim,
İstərsə qul ola, hökmdar, hakim?
Bunla razılaşıb düşüncən, dərkin,
Sonda insanlığın gələcək kara,
Axtar, zərərdə də bir xeyir ara.
*19.02.2024*

### SÖZLƏ İŞİN OLMASA BİR

Düşün, daşın min plan qur,
İcrasına od-közə vur
Hey özünü, gəlməz uğur
Keçirsən də necə tədbir,
Sözlə işin olmasa bir.

Ətrafını sanma avam,
"Oynamıram, deyil havam"
Söyləyərlər, gələr davam.
Başlanar dava, çək-çevir,
Sözlə işin olmasa bir.

Aldanarlar bir gün, beş gün,
Göstərərlər dözüm, mümkün,
Sonda işə elə "düyün"
Vurarlar, tərs müəmma, sirr,
Sözlə işin olmasa bir.

Çaş qalarsan, düzün, tərsin,
Qarışmaqdan saysız kəsin,
Bil, alarsan "eyham" dərsin.
Onda, qazıb gir, yerə gir,
Sözlə işin olmasa bir.

Hər kim olsan anda şəksiz,
Görünərsən puç, gərəksiz,
Qalmağından tək, köməksiz.
Əyilərsən, ol pələng, şir,
Sözlə işin olmasa bir.

### SÖZLƏ EHTİYATLI DOLAN

Tanrının "ol" kəlməsindən,
Bax, yaranıb nə var desən.
Şah, gədasan kimsən, nəsən
Ki, olmaya başa bəlan,
Sözlə ehtiyatlı dolan.

Yüz ölç, bir biç, olsan əmin,
Həqiqətsə, bax onda din.
Hətrəm-pətrəm vursa dilin,
Rişxənd olar sənə qalan,
Sözlə ehtiyatlı dolan.

Tərs gələrsə fikrin kimlə,
Bacar onu sakit dinlə,
Vermə qərar hirslə, kinlə.
Olma qəfil çalan "ilan",
Sözlə ehtiyatlı dolan.

Arxayın dərkdən əsasa
Bildiyini kəsə, qısa
Söylə, keçmə də "mus-mus"a,
"Mustafa"nı yada sal, an,
Sözlə ehtiyatlı dolan.

Eşitsən nadandan nəsə,
Girmə onla nahaq bəhsə,
Səbəb olar küyə, səsə.
Qalar adın şivən salan,
Sözlə ehtiyatlı dolan.

Hər deyimə vermə fikir,
Etmə ürəkdə çək-çevir,
Haqq olanlar haqqı sevir.
Bil ki, saysız yalan-palan,
Sözlə ehtiyatlı dolan.
*11.02.2024*

### BAŞIMI QATMISAN

Bilmirəm yerdə, göydəyəm,
Bayırda, ya ki evdəyəm,
Məgər ki, kefliyəm, keyəm?
Sevgim canımda vəlvələ,
Başımı qatmısan elə.

Soyuyub iş-gücdən əlim,
Sanki qıfıllanıb dilim.
Sorsalar nə-"Eh, nə bilim",
Cavabım bu gəlir dilə,
Başımı qatmısan elə.

Üz çevirib getsəm hara,
Başım dəyir hey divara.
Deyən basır məni qara,
Bənzəyirəm lap "debil"ə,
Başımı qatmısan elə.

Havalıyam bəlkə də, hə,
Yaranıbmı səndə şübhə.
Zülmət gecə, nurlu sübhə
Desəm, mənə ağıl dilə,
Başımı qatmısan elə.

Bilmirəm nə etdiyimi,
Hara niyə getdiyimi,
Düşünürəm "bitdiyimi".
Yaş gözümdə gilə-gilə,
Başımı qatmısan elə.
*10.02.2024*

### SƏNSƏN

Görcək ay çöhrəni dilim olur lal,
Bircə söz tapmıram, sanki keyəm, kal.
Çaşsam, baxışından oxunur sual:
"Bunun ağlın alan kimdir görəsən?"
Ay gülüm, duymursan məgər bu sənsən?

Təəccüb qalmısan-"nə olub buna?"
Girir dəqiqədə min bir cür dona,
Düşüb elə bil ki, nəsə oyuna.
Kimdir əhdini bu yazığın kəsən?
Ay gülüm, duymursan məgər bu sənsən?

Düşüncən:"Bəlkə də təmənnası var",
Şəksiz susmasının bir əsası var,
Məncə bax, bu işin var əmması, var.
Bir çarə çözərdim, dinib söz desən,
Ay gülüm, duymursan məgər bu sənsən?

Artır, hər an artır həyəcanım çox,
Dönürəm heykələ, ruhum, canım yox,
Bu sorğun köksümə , süngü olur, ox,
De mənə, söylə, de kimi sevirsən?
Ay gülüm, duymursan məgər bu sənsən?

Sustalır əl-qolum düşür yanıma,
Sanki zülmət çökür nurlu danıma.
Səssiz fəryadıma, and-amanıma,
Baxmırsan,"kimdir kim?"deyib gülürsən.
Ay gülüm, duymursan məgər bu sənsən?
*07.02.2024*

### GƏL GEDƏK

İstəyirsən, qalxaq birgə Ələzə,
Zirvələrdən itsin "ağlar", gəl gedək.
Bu səyahət edə nəşə bəxş bizə,
Yaşıllaşsın düzlər, dağlar, gəl gedək.

Ruhumuzu ılıq bahar nəfəsi
Qoy coşdursun zövq duymağa həvəsi.
Açsın qış da buz sazaqdan "qəfəsi",
Bülbüllərlə dolsun bağlar, gəl gedək.

Yamaclardan bol su içsin dərələr,
Açılacaq çır-çırpıdan bərələr.
Yataqları bir hay-haray görələr,
Coşar-daşar, çaylar, çağlar, gəl gedək.

Ətir yaysın kol, ağacın çiçəyi,
Nişan versin tər yarpağın ləçəyi.
Daraqlansın hər bir ləkin birçəyi,
Sıralaya, düzə tağlar, gəl gedək.

Gözəl olur bax, bu halı, haləti,
Çəkir hər yan "mənə bax"la diqqəti.
Tutur gerçək, xəyalların ülfəti,
Bol sevincdən gözlər ağlar, gəl gedək.
*24.01.2024*

